# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

# İnsanlığın düşməni, təbiətin qənimi

## Ermənistanın Zəngəzur bölgəsində fəaliyyət göstərən dağ-mədən şirkətləri beynəlxalq ekoloji təşkilatların çağırışlarına məhəl qoymurlar

**Ermənistan 30 ilə yaxın bir müddətdə təkcə 20 faiz ərazimizi işğalda saxlamayıb, həm də Azərbaycan təbiətinə qarşı ekoloji terror törədərək qiymətli təbiət abidələrimizi, flora və faunamızı məhv edib. İllərlə Qarabağdakı təbii resursları qanunsuz istismar etməsi, ətraf mühitin ekoloji tarazlığını pozması və zəhərli tullantılarla Azərbaycan ərazisindən keçən içməli su hövzələrini çirkləndirməsi insanlığa sığmayan cinayətdir.**

Ermənistan işğal dövründə transsərhəd su ehtiyatlarını davamlı olaraq kimyəvi və bioloji maddələrlə çirkləndirmişdir. Məsələnin ən ağrılı tərəfi odur ki, bu ölkə törətdiyi ağır ekoloji terrorla kifayətlənməyərək, yenə də təbiətə qarşı öz çirkin niyyətini həyata keçirməkdə davam edir, ekoloji mühitin toxunulmazlığı haqqında beynəlxalq konvensiyaların tələblərini kobudcasına pozaraq, BMT-nin ətraf mühit üzrə müvafiq təşkilatlarının normativ aktlarına məhəl qoymur. 2023-cü ildə Ermənistanın Azərbaycanla həmsərhəd bölgəsində - Arazdöyəndə böyük ekoloji fəlakət törədəcək irimiqyaslı metallurgiya zavodu tikmək istəyi də bu məsuliyyətsizlikdən irəli gəlirdi. Amma baş verəcək ekofəlakəti əvvəlcədən görən, hiss edən Azərbaycanın vətəndaş cəmiyyəti vaxtında etiraz səsini qaldırdı. 2023-cü ildə 4 qeyri-hökumət təşkilatı "Environmental Protection First" (EPF) Koalisiyasını təsis etdi. Azərbaycanın tarixi torpaqları olan Arazdöyən ərazisində metallurgiya zavodunu tikmək barədə Ermənistanın bəyanat verməsindən sonra yaradılan EPF prosesi ciddi nəzarətə götürdü və baş verənləri yaxından izləməyə başladı. EPF mütəmadi olaraq səsləndirdiyi etiraz bəyanatları ilə zavodun tikintisinin dayandırılmasına nail oldu.

Ötən dövrdə Ermənistanın ekoloji yönümlü QHT-ləri də bizim koalisiyanın müraciətlərinə səssiz qalmadılar, EPF ilə həmrəylik nümayiş etdirdilər. Buna görə də həmin QHT-ləri Ermənistanda Azərbaycana casusluq etməkdə günahlandırdılar. Hələ keçən il EPF Ermənistan hökumətindən tələb etmişdi ki, Cənubi Qafqazda ekologiya və səhiyyə böhranı yaradan dağmədən sənayesi müəssisələrinin qapılarını ekoloji monitorinqlər üçün açsın. Bu çağırışa dərhal dünyanın 22 ölkəsinin QHT-ləri dəstək verərək bəyanat səsləndirdilər. Bəyanatı imzalayan 49 xarici QHT və ekofəal Cənubi Qafqaz regionu üçün Ermənistandan ətraf mühitə ziyan vuran fəaliyyəti dərhal dayandırmağı, beynəlxalq konvensiyalardan irəli gələn öhdəlikləri yerinə yetirməyi tələb etdilər.

Bu günlər EPF Koalisiyası Cənubi Qafqazın və Xəzər dənizinin ekologiyasını zəhərləyən Ermənistanın dağ-mədən sənayesi müəssisələri barədə hazırladığı interaktiv rəqəmsal xəritəni ictimaiyyətə təqdim edib. İnfobank mahiyyətli rəqəmsal xəritə Azərbaycan, ingilis və erməni dillərində tərtib olunub. İnteraktiv xəritədə faydalı qazıntıların növləri, yerləşdiyi ərazilər, əsas çirkləndirici müəssisələr, onların hansı maddələrlə hansı çayları çirkləndirməsi barədə məlumatlar yer alıb. Peşəkar kartoqrafik əsər olan xəritə müasir "WGS-84" koordinat sistemində yığılıb. Klikləmə üsulu ilə obyektlər haqqında ətraflı məlumat almaq mümkündür. Xəritədə xammal emalı müəssisələrinin, istismar edən şirkətlərin adları, müəssisələrin təyinatı, ətraf mühitə təsirləri haqqında məlumatlar, foto və videolar verilib.

Koalisiyanın həmtəsisçisi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) yanında İctimai Şuranın sədri Amin Məmmədov deyir: "Azərbaycan QHT-lərinin Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadlarına qarşı açdığı cəbhə dünyanın ən müxtəlif ölkələrindəki ekoloji təşkilatlar tərəfindən alqışlanıb. Biz davamlı dəstək mesajları alırıq. 2024-cü ilin mayında Keniyada BMT-nin Vətəndaş Cəmiyyəti Forumunda, sentyabrında ABŞ-də BMT-nin Gələcəyin Sammiti toplantısında biz bu barədə geniş iş aparmışıq. Ermənistanın hərəkətlərindən bir çox ekofəallar və beynəlxalq ekspertlər dəhşətə gəliblər".

Yeri gəlmişkən, qeyd edək ki, hələ ötən il noyabrın 13-də COP29-un "yaşıl zona"sında Milli QHT Forumu Pavilyonunda EPF "Ermənistanın dağ-mədən fəaliyyətinin Cənubi Qafqazda ətraf mühitə ekoloji təsirləri" mövzusunda yan tədbir keçirmişdi. Tədbir iştirakçılarının diqqətinə çatdırılmışdı ki, Ermənistan hakimiyyəti dağ-mədən fəaliyyətinin ekoloji fəsadları mövzusunda hələ də susur, yerli və xarici QHT-lərin müraciətlərinə cavab vermir. Müəssisələrdə Azərbaycan və beynəlxalq təşkilatların ekoloji monitorinqlər aparılmasına şərait yaratmır.

Amin Məmmədov artıq İran mediasında da mövzunun müzakirəyə başlandığını deyir: "Bu günlərdə İranın ekoloji problemlər üzrə ixtisaslaşmış nəşri olan "Pəyam-e ma" qəzeti Araz çayının çirklənməsi ilə bağlı geniş hesabat dərc edib. Hesabatda açıq yazılır ki, Araz çayı 59 ağır metalla yüksək dərəcədə çirkləndirilib. Suyu çirkləndirən əsas elementlər alüminium, arsen, mis, manqan, molibden, qurğuşun və vanadiumdur. Bunlar, əsasən, Ermənistanın dağ-mədən müəssisələrindən qaynaqlanır".

Xatırladaq ki, İranın Mədən Evinin sədri Məhəmmədrza Bəhramən hələ 2024-cü ildə Tehranda keçirilən "Mədən sənayesində davamlı inkişaf" adlı konfransda çıxış edərkən Ermənistanın mis mədənlərinin tullantı sularının Araz çayına axıdıldığını, amma İran hökumətinin buna göz yumduğunu dilə gətirmişdi.



Bu gün Ermənistanda 940-dan çox müxtəlif mədən fəaliyyət göstərir. Onlardan 46-sı ağır metal sənayesi ilə məşğuldur. Həmin 46 mədəndə 26 şirkət fəaliyyət göstərir. Bunların 12-si Zəngəzur bölgəsində işləyir və onlar qızıl, gümüş, mis, qurğuşun metallar istehsal edirlər. Həmin metalların hazırlanması zamanı zəhərli kimyəvi maddələrdən istifadə olunur. Tullantılar yeraltı sulara, çaylara axıdılır ki, bu da su hövzələri üçün risklər yaradır.

EPF Koalisiyasının həmtəsisçisi Sabit Bağırov təklif edir ki, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü öz standartında ekoloji normaların tətbiqinə dair meyarları gücləndirməlidir: "Belə olsa, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün üzvü olan Ermənistan bu sahədə daha şəffaf və məsuliyyətli olar. BMT-nin transsərhəd su axarlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında konvensiyası üzrə katibliyi də bu problemlə bağlı konkret mövqe ortaya qoymalıdır. Biz onlarla da görüşməyə hazırıq. Çünki Ermənistan bu konvensiyaya qoşulmaqdan qaçır".

Ermənistan "Sərhədlərarası kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Konvensiyanın (Espo Konvensiyası) üzvüdür. Konvensiyaya qoşulan ölkələrin hər birinin transsərhəd kontekstində ətraf mühitin qiymətləndirilməsi ilə bağlı öhdəliyi var. Əgər bir ölkə qonşu dövlətin sərhədinə yaxın ərazidə sənaye və iqtisadi fəaliyyət həyata keçirərsə, bununla bağlı mütləq şəkildə həm öz ölkəsinin, həm də qonşu dövlətin ictimaiyyətinə və hökumətinə hesabat təqdim etməlidir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*